Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Dönüb bir göy göyərçinə, sahilinə qonam, dəniz

Beynəlxalq dənizlər günü ilə əlaqədar mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait.

**Bakı – 2023**

Tərtibçi: Təranə Niftiyeva

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova, Əməkdar Mədəniyyət işçisi

Redaktor: Ruhiyyə Məmmədli

**“Dönüb bir göy göyərçinə, sahilinə qonam, dəniz”** Beynəlxalq dənizlər günü ilə əlaqədar mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait. tərt.ed.Niftiyeva Təranə ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-47s.

©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023

## Giriş

İnsanı valeh edən təbiət öz füsünkar gözəlliyi və ecazkarlığı ilə özünə məftun edir. Təbiətin bir parçası olan dəniz də biz insanları daim özünə cəlb edir. Dənizin parıltısı, suyun şırıltısı, pıçıldaşan ləpələr insan ruhunu oxşayan amillərdəndir. İnsanı valeh edən dəniz daim qorunmalı və nəzarətdə saxlanılmalıdır. Burada yaşayan canlı varlıqlar insan həyatında mühüm rol oynayır. Dəniz canlıların qeyri-adi müxtəlifliyi sayəsində insanlar üçün çox sağlam qida mənbəyidir. Bu gün minlərlə balıq və digər dəniz canlıları süfrələrimizi bəzəyir, bizə sağlamlıq bəxş edir. Dənizin altında plankton, mikroskopik canlılar və bakteriyalar, meduzalar, xərçənglər, karideslər, köpəkbalığı, delfinlər, balinalar, ahtapotlar, dəniz atları, saysız-hesabsız bitki növləri və dəniz səthi var. Dənizin səthi müxtəlif qayalar və qumlarla örtülmüşdür. Quran ayələri suyun təbiətdəki daimi dövrü barəsində bizə müasir elmin nailiyyətləri ilə səsləşə bilən məlumatlar verməklə yanaşı, dənizlər haqqında da orijinal, hətta müasir elmin özü üçün belə yeni olan məlumatlar verir. Dənizlər dünyanın ən mühüm nəqliyyat vasitəsidir. Dünyanın neft və təbii qaz ehtiyatlarının çoxu su altındadır. Bu yolla dənizlər bizi enerji ilə təmin edir. Səth səviyyəsində olan fotosintetik plankton (görünməz) sayəsində qırmızı şam meşələrindən belə daha çox oksigen çıxarırlar. Bu yolla dənizlər və okeanlar atmosferdəki oksigenin 50-80%-ni istehsal edir. Yerin boşluqlarını dolduran və okeanla birləşən böyük su hövzələrinə dəniz deyilir. Dünyamızın dörddə üç hissəsi su ilə örtülüdür. Onun böyük hissəsi dənizlərdən ibarətdir. Dənizlər yüksək duzlu

su hövzəsidir.  Bu duz nisbətinə təsir edən müxtəlif amillər var. Mütəxəssislərin fikrincə Mezozoy erasının başlanğıcında 30-min il davam edən Trias dövrü ərəfəsində Yer kürəsinin böyük sahəsini quru təşkil etmiş, sonralar həmin quru hissələri su basdığına görə dəniz əmələ gəlmişdir. Elmi ədəbiyyatda Tetis adlandırılan bu dənizin bir tərəfi İspaniyaya, o biri tərəfi, isə Zond adalarınadək çatırmış, lakin Mezozoy erasının sonunda, yəni 70 milyon il davam edən Təbaşir dövründə gil, qum və əhəngdaşı çöküntülərinin uzun tarixi dövr ərzində toplanaraq suyun səthinə çıxması quru əmələgəlmə prosesinə güclü təkan vermişdir. Proses bu mərhələ ilə dayanmayıb davam etmiş, nəticədə Xəzər dənizi, Qara dəniz hövzəsindən tədricən ayrılmışdır, amma tarixin müxtəlif dövrlərində Xəzərin sahəsi bəzən böyümüş, bəzən də kiçilmişdir. Tədqiqatçılar bu hövzənin İrandan Samara şəhərinədək geniş əraziyə malik Ağcaqıl dənizi kimi də adlandırmışlar. Müasir Xəzərin formalaşması müxtəlif mərhələlər keçməyinə baxmayaraq milyon il bundan qabaq iqlimin kəskin dəyişməsi (Avropada, Asiyada və Şimali Amerikada buzlaşma dövrü və onun ərimələsi prosesi) onun ərazisinin dövrü olaraq dəyişməsinə təsir göstərmişdir. Dənizin nə demək olduğunu daha yaxşı başa düşmək üçün bilməliyik ki, dəniz və okean ekosistemi sayəsində indiki əhalimizə çata və dünyanın müxtəlif yerlərində zəngin iqlim şəraitində yaşaya bilərik. F.Köçərli adına Respublika Uşaq kitabxanası olaraq Dəniz günü ilə əlaqədar metodik vəsaiti yazmağı özümüzə borc bildik. Vəsait iki hissıdın ibarətdir: I hissə Dənizlər haqqında məlumatlardan, II hissə isə keçiriləcək tədbirlərdən bəhs edir. Bu vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmışdır.

Beynəlxalq dənizlər günü

1978-ci ildən etibarən qeyd olunan bu gün Beynəlxalq Dəniz Təşkilatı (IMO) Assambleyasının 10-cu sessiyasının qərarı ilə təsis edilib. Dünya Dəniz Günü 1980-ci ilədək martın 17-də keçirilib. Sonra onun qeydolunma tarixinin sentyabrın sonuncu həftəsinə keçirilməsinə qərar verilib.
Dünya Dəniz Gününün məqsədi qanunsuz balıq ovu, suyun çirklənməsi və qlobal istiləşmə nəticəsində dəniz və okeanlarda meydana gələn bərpa oluna bilməyən dəyişikliklərə beynəlxalq səviyyədə diqqət çəkməkdir. Günün ən mühüm vəzifələri isə dəniz daşımalarında ətraf mühitin təhlükəsizliyini artırmaq, dənizin ətraf mühitini xüsusilə neft çirklənmələrindən qorumaq, bioresursların mühafizəsi və brakonyerliklə mübarizənin qarşısını almaqdır. BMT-nin məlumatına görə, son 100 il ərzində tuna, treska, marlin kimi balıq növlərinin 90 faizi ovlanıb. İl ərzində dəniz və okeanlara təxminən 21 milyon barrel neft axır. Böyük su obyektlərinə atılan sintetik tullantılar ildə bir milyon dəniz quşunun və 100 min dəniz məməlisinin ölümünə səbəb olur. Son bir əsr ərzində qlobal istiləşmə nəticəsində planetin əsas su obyektlərinin səviyyəsi 10-25 santimetrə qədər artıb. Qlobal ticarətin 80 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Beynəlxalq yükdaşımalar zamanı əksər hallarda dəniz və okeanlardan istifadə edilməsi onların ekosistemlərini pozur. Buna görə də hər il müəyyən bir aktual mövzuya həsr olunmuş Dünya Dəniz Günündə müxtəlif ekoloji tədbirlər, aksiyalar və dünya miqyasında mitinqlər keçirilir. Bu günün cari ildəki şüarı "IMO 70: Mirasımız - Daha yaxşı gələcək üçün daha yaxşı daşınma"dır.

## Xəzər Dənizi

Qədim yunan coğrafiyaşünası və tarixçisi Hekatey Miletli (e.ə. VI–V əsrlər) ilk dəfə olaraq Xəzərdən bəhs etmiş, onu okean körfəzi və Hirkan (Girkan) dənizi kimi adlandırmışdır. Sovet tarixçisi L.A.Yelnski isə Hekateyin və onun müasirlərinin coğrafi baxışlarını bütövlükdə təhlil edərək belə nəticəyə gəlir ki, yunan səyyahı bütün dənizləri (Aralıq dənizi istisna olmaqla) o cümlədən Xəzəri qapalı hesab etmişdir, lakin Herodotun dövründə Qırmızı, Ərəbistan və s. dənizlərin okeanla əlaqəsi aşkar edildi. Görünür tarixçi Herodot da bir dəniz haqqında olan baxışın mexaniki olaraq başqasına tətbiq edilməsinə qarşı çıxmışdır. Ona görə də Xəzərin heç bir dənizlə əlaqəsi olmadığını göstərmişdir. Xəzərə göl xarakteri e.ə. V–IV əsrlərdə daha çox irəli sürülürdü. Eyni zamanda əks nəzəriyyələr də mövcud idi. E.ə. II əsrdə yaşamış Ptolomey də birmənalı olaraq Herodotun fikrini təsdiq etmişdir. Sərkərdə Makedoniyalı İsgəndərin qoşunları Sırdərya ətrafında olduğu zaman (həmin vaxt Xəzər və Aral dənizləri bir-birindən ayrılmamışdır) İskəndərin silahdaşları belə hesab etmişlər ki, Sır-Dərya Xəzər dənizinə, Don çayı isə Azov dənizinə tökülür, Xəzər və Azov dənizi bir-birinə qovuşur. Hətta böyük mütəfəkkir Aristotel də Xəzərin qapalı hövzə olmasını müdafiə edirdi. E.ə. IV əsrdə yaşamış Flavi Arrianın məlumatına əsasən hətta Makedoniyalı İsgəndər Xəzərin şimal və şərq okeanları ilə əlaqəsinin olması haqqında olan mübahisələrə son qoymaq məqsədi ilə əvvəlcə sərkərdə Partokla bu məsələni araşdırmağı tapşırmış, daha sonra onun bütün sahillərini yoxlamaq üçün cənubda dəniz donanmasının yaradılması haqda Heraklitə əmr etmişdir, lakin İsgəndərin ölümü bu məsələni 40 il geri saldı. Bunu onun varislərindən biri Selevk

Nikator həyata keçirdi. O, e.ə. 285–280-ci illərdə Hirkan hakimi Partokla əmr etdi ki, bütün sahilboyu səfər etsin və burada əsas məqsədlərdən biri Xəzərin xarakterini öyrənmək idi. Yəni o, başqa dənizlərlə birləşirmi, birləşirsə hansı ilə. Partokl dövrünün savadlı dövlət xadimi və alimi idi, lakin səfər nəticəsində yazdığı əsərdə çox qəribə bir nəticəyə gəlmişdir. Tədqiqatçı Seyran Vəliyev yazır ki, Partokol Xəzərin şimalda şimal okeanı ilə birləşdiyi qənaətinə gəlmişdir. Həmin əsərin əldə olmamasına görə tədqiqatçı bunun səbəbini izah etmir, lakin bu haqda elmi ədəbiyyatda ziddiyyətli fikirlər vardır. Bəzi alimlərə görə Partokl Qaraboğaz-Qöl körfəzinə gedən yolu okeana gedən boğaz hesab etmiş, başqalarına görə Manqışlağa qədər üzmüş yarımadanın şərqə döndüyündən okeanın başladığını zənn etmiş, bir başqasına görə isə Volqanı okeana gedən boğaz saymışdır. Yenə də L. A. Yelnski bunları təhlil edərək qeyd edir ki, Partokl Xəzərin yalnız Abşeron yarımadasınadək olan hissəsinədək üzmüş, qalan ərazini şimal dənizi hesab etmişdir. Beləliklə, bir neçə əsr ərzində qədim adamların Xəzəri okean körfəzi hesab etməsinə baxmayaraq e.ə. II əsrdə Ptolomey köhnə və yeni məlumatlar əsasında Xəzərin qapalı hövzə olmasını tam əminliklə söyləmişdir. Bu fikrin qələbə çalması əlbəttə bir əsrdən çox vaxtda mümkün olmuşdur. Sonrakı əsrlərdə də bu höfzəni okean körfəzi hesab edən alimlər olmuşdur. Bir məqamı yadda saxlamaq lazımdır ki, Xəzərin göl olması, qapalı hövzə olması həqiqəti 2 min ildən artıq mübahisədən sonra təsdiq edilmişdir. Belə nəticəyə gəlindi ki, Xəzəri Qara, Baltik və başqa dənizlərlə yanaşı qoymaq olmaz. Ümumiyyətlə, Xəzərin tarixi haqqında qədim dövrdə daha çox yunan müəllifləri (Hekatey, Herodot, Erotosfen, Strabon, Ptolomey və s.) ilk orta əsrlərdə isə yunanların fikirləri ilə tanış olmuş ərəb müəllifləri (Yaqut

Həməvi, Zəkəriyyə Qəvzini, Əbül Fida, İstəxri, İdrisi) sonrakı əsrlərdə isə fars, türk, Avropa və rus səyyahları (İ. F. Seymanov, Q. V. Abix, N. N. Andrusov və s.) məlumat vermişlər. X əsrdə yaşamış Məsudi Xəzərdə üzən rus gəmiləri, Bakıda çıxarılan neft haqqında məlumat vermişdir. Eramızın 900-cü illərində ərəb müəllifləri İstəxri və İdrisi Xəzərin qapalı olduğunu sübut etmişdir. İstəxri yazırdı: "Hövzeyi-bəhru-əl Xəzərin bir nöqtəsindən çıxıb onun sahili boyu hərəkət etməklə, yenə həmin nöqtəyə qayıtmaq olar".

Xəzərdəki neft haqqında tarixə belə fakt məlum olmuşdur ki, e.ə. 331-ci ildə Makedoniyalı İsgəndər İranı mühasirəyə alarkən qurduğu çadırı Xəzər sahilində yaşayan sakinlərin gətirdikləri gil qabın içərisində yanan neftlə işıqlandırmışdır. Bu hövzənin adı XV əsrdən müntəzəm olaraq Xəzər adlanmış, ilk xəritəsi isə 1616–17-ci illərdə çəkilmişdir. Xəzərin yeni və daha dəqiq xəritəsi 1717-ci ildə təchis olunmuşdur. XVIII əsrin 20-ci illərində İ. F. Soymonov tərəfindən Xəzərin tədqiqi aparılmış 1731-ci ildə hidrocoğrafi tərkibdə ümumi xəritəsini nəşr etdirmişdir. XIX əsrin II yarısında isə Xəzərin tədqiqində İ. V. Tokmaçev və M. İ. Voynoviçemin xüsusi xidmətləri olmuşdur. XIX əsrin əvvəllərində Kolodkin birinci dəfə sahillərin kompas şəklini hazırladı, əsrin ortalarında bu iş kontr-admiral İ. İvasintsevin rəhbərliyi altında davam etdirildi. 1856-cı illərədək ekspedisiya işi davam etdirildi, 1874-cü ildə bu ekspedisiyaların nəticəsində iki cildlik Həştərxan-Bakı-Aşurada haqqında "qısa hidrocoğrafi təsvir və Xəzər dənizində üzməyə rəhbərlik" adlı bütöv atlas nəşr olundu. XIX əsrdə P. S. Kollas, K. M. Ber, Q. V. Abix, E. X. Lents, N. İ. Andrusov və digərləri Xəzərin təbii şəraitinin öyrənilməsi sahəsində müəyyən işlər görmüş, bu işdə Bakı

gömrüyünün və Xəzərdəniz hidrometroloji idarəsinin əməkdaşlarının çox böyük xidmətləri olmuşdur. İ. M. Knipoviçin rəhbərlik etdiyi ekspedisiya 1904, 1912, 1915-ci illərdə Xəzərdə müxtəlif işlər görmüşdür. XX əsrin əvvəllərindən başlayaraq sovet geoloqları İ. M. Qubkin, B. A. Appolov, K. P. Voskresenki, II dünya müharibəsindən sonra bu işdə Azərbaycanlı mütəxəssislər K. K. Gül, E. M. Şıxlınski, A. Q. Qasımov, M. İ. Abakorov, A. İ. Xəlilov və başqaları Xəzər haqqında çox dəyərli tədqiqatlar aparmışlar. Azərbaycanlı alimlər əsasən Xəzərin tədqiqatına 1947-ci ildən başlamışlar. XVIII əsrdən etibarən mühüm iqtisadi-siyasi əhəmiyyətə malik olan, öz təbii sərvəti ilə məşhur Xəzər dənizi rusların diqqət mərkəzində olmuş, XIX əsrin 30-cu illərindən isə Azərbaycanın işğalından sonra bu hövzədən Rusiya və İran sərbəst şəkildə istifadə etmişlər. XIX əsrin sonlarından başlayaraq Xəzərin geoloji tarixi, neft qaz yataqları, bioloji şəraiti və s. tədqiqatlar bilavasitə azərbaycanlı mütəxəssislərin mühüm xidmətləri sahəsində aşkar olunmuşdur. Bu dövrdən etibarən Xəzərdə ağalıq uğrunda iki dövlətin Rusiya və İranın mübarizəsi daha səciyyəvidir ki, SSRİ dağılanadək burada bir çox maraqlı məqamlar diqqəti cəlb edir.

Müasir Xəzərin şimal-cənub uzunluğu təqribən 1200 km, orta eni 320 km, sahil xətttinin uzunluğu 6,5 min km (o cümlədən, 800 km-i Azərbaycanın ərazisində), sahəsi 370 min kv km. (1929-cu ildə isə sahəsi 422 min kv km-olmuşdur), dünya okeanı səviyyəsindən 28 metr aşağıdır. Son 160 illik tarixində Xəzərin səviyyəsi 25,2 m. (1882) — 29,0 m. (1977) arasında tərəddüd etmiş, səviyyənin enməsi 3,8 m, son 100 ildə isə 3,2 m. olmuşdur. 1975–95-ci illər ərzində Xəzərdə su səviyyəsinin qalxması nəticəsində 12,5 min $km^2$

ərazi su altında qalmışdır. Bu zaman Azərbaycanda 48450 ha. sahəni su basmış, 2 milyard dollar ziyan dəymişdir. Bakı buxtasında suyun altında qalmış Karvansara adasına, Lənkəranda su altında qalmış meşə qalığına əsasən belə nəticəyə gəlmək olar ki, hətta XII–XIII əsrlərdə Xəzərin səviyyəsi bu günkündən çox aşağı olmuşdur. 1320-ci ildə isə Xəzərin qərb sahilində tapılmış Marino-Sanuto xəritəsində belə bir yazı vardır: "Dəniz hər il bir ovuc içi qalxır və bir neçə yaxşı şəhərləri basmışdır". Göründüyü kimi haqqında danışdığımız Xəzər çox geniş bir tarixə malikdir. Bu tarix onun əsrlərlə, minilliklərlə bölgədəki mühüm əhəmiyyətindən xəbər verir, lakin XIX əsrin ortalarından başlayaraq sənayedə daha mütəşəkkil rol oynayan neft region dövlətlərinin diqqətini kəskin şəkildə Xəzərə yönəltmişdir. Əsrlərlə Rusiyanın Qafqazda apardığı mübarizələrin əsasında elə Xəzər kimi böyük hövzəsinin sərvətlərinə sahib olmaq dururdu. Buna görə də son 150 il Xəzər tarixində daha maraqlı məqamlarla zəngindir. Bu dövr ərzində dənizin Azərbaycan hissəsində 432 milyon ton neft, 318 milyard kubmetr qaz hasil edilmiş, 26 böyük yataqlar kəşf edilmişdir. Məhz dünya praktikasında ilk dəfə olaraq 1798–1830-cu illərdə dənizdə Xəzərin buxtasında qazılmış quyulardan neft çıxarılmışdır. 1872-ci ildən başlayaraq Avropanın neft nəhəngləri bölgədəki neft sahələrinə böyük maraq göstərmiş, 1873-cü ildə Robert Nobel (1829–1896) Abşeron, Xəzər neft yataqlarının istifadəsinə və ağ neft fabrikinin tikintisinə qardaşları Lüdviq və Alfred ilə birlikdə 25 min rubl sərf etmişdir. Həmin qardaşlar 1879-cu ildə neft şirkəti yaratmışlar. 1877-ci ildə L. Nobelin sifarişi ilə dünyada ilk neft gəmisi tikilib istifadəyə verilmişdir. "Zaratustra" adlanan dünyanın ən iri tankeri 40 ilə yaxın Xəzər dənizində işlədi. Xəzər neftinə daha sonra Rotşildlər maraq göstərmiş, öz

fəaliyyət dairəsinə görə 2-ci yerə çıxmışlar. Sovet hakimiyyəti illərində də Xəzər nefti məşhurluğu ilə yanaşı, Moskvanın diqtəsi ilə güclü istismar olunmuş, həm də burada tətbiq olunmuş texnikanın səviyyəsi getdikcə yüksəlmişdir. İlk dəfə olaraq 1949-cu ildə sənaye üsulu ilə neftin istehsal edilməsinə Xəzər dənizində başlanmışdır. Ötən 50 il ərzində Xəzər nefti Sovet Rusiyasının güclü gəlir mənbəyi olmuşdur. XX əsrin 70-ci illərində Xəzərin tədqiqi ilə məşğul olan görkəmli azərbaycanlı coğrafiyaşünas alim Q. M. Gül bu haqda yazırdı: "Xəzərin sərvətləri müxtəlif və rəngarəngdir. Dünya durduqca Xəzər bəşəriyyətə xidmət edə, ona bol ruzi verə bilər. Bunun üçün onun təbii sərvətlərindən, iqtisadi imkanlarından ağıl və zəka ilə zamanın tələblərinə uyğun səmərəli istifadə yolları müəyyən edilməlidir", lakin 90-cı illərdə baş vermiş ictimai-siyasi proseslər Xəzərin tarixində əsaslı dönüş yaradaraq əvvəllər keçmiş SSRİ-nin İranla bağladığı 10-dan artıq müxtəlif müqavilələr əsasında istismar praktikasını kölgədə qoymuşdur. Artıq regionda beş müstəqil dövlətin mövcudluğu onların xarici siyasətində "Xəzərdən yeni istifadəni" meydana çıxarmış, bu beynəlxalq əhəmiyyətli mövzuya çevrilmişdir.

***Daxili dənizlər*** — Quruya daxil olmuş, lakin okeanla boğazlarla əlaqədə olan dənizlərə daxili dənizlər deyilir. Daxili dənizlər materiklərin parçalanmış sahilləri boyu yerləşir. Ən böyük daxili dəniz **Aralıq** dənizidir. Daxili dənizlər əsasən Avrasiya və eyni zamanda Şimali Amerika sahillərində yerləşir. Bu sözügedən materiklərin sahillərinin daha çox parçalanmış olduğu üçün belədir. Daxili dənizlərə misal olaraq Qara dəniz, Aralıq dənizini, Ağ dənizi, Mərmərə, Egey, Qırmızı dəniz, Aral dənizi, Xəzər dənizini və s. göstərmək olar. Daxili dənizlər əsasən hər hansı ölkə

sahillərində olduğu üçün bu ölkələr tərəfindən mənimsənilir. Daxili dənizlər liman nəqliyyatı, balıqçılıq və təbii sərvətlərin əldə edilməsi üçün faydalıdır. Dəniz suyunun əsasını duz və xloridlər təşkil edir. Dəniz suyunun tərkibində orta hesapla 35 qr. duz vardır. Dəniz suyunda duz dedikdə tərkibindəki minerallar nəzərdə tutulur. Duzluluq temperaturdan, illik yağıntıdan, okean cərəyanlarından, ərazinin relyefindən, flora və faunadan, buxarlanmadan və günəşin düşmə bucağından asılıdır. Ekvatorial enliklərdə yağıntı çox olsa da temperatur yüksək olduğundan buxarlanma yüksəkdir. Ekvatorial enliklərdə suyun orta duzluluğu 34–35‰-dir. Tropik enkilərdə buxarlanmanın və temperaturun çox olması, eyni zamanda yağıntının az olması səbəbi ilə duzluluq daha çox- 36–37‰-dir. Tropik enliklərdə yerləşən qırmızı dəniz ən duzlu dənizdir(42‰).

## Qırmızı dəniz



Ecazkar sualtı “bağlar”, batmış gəmilər və dünyanın ən nadir balıqları ilə zəngin Qırmızı dəniz. Görəsən, suları mavi olan bu dənizi Qırmızı adlandırmaq, şəffaf sularını “şorlaşdırmaq” fikri kimin ağlına gəlib. 25 milyon ildən əvvəl yerin altında baş verən silkələnmə nəticəsində Afrika qitəsi və Ərəbistan yarımadası arasında çat əmələ gəlib. Getdikcə böyüyən və genişlənən çatın yerində zaman keçdikcə yarğan yaranıb. O vaxtdan minilliklər ötüb. Yarğan dəniz suyu ilə dolaraq dünyada ən duzlu suya malik dənizinə çevrilib. Bu dənizi Qırmızı dəniz adlandırsalar da, onun suyu şəffaf və mavidir. Görəsən, hansı zarafatcıl adam ona bu adı verib?

Fikirlər haçalanır. Bəziləri hesab edir ki, bu səhvən baş verib: qədim əlyazmaları düzgün oxumayıblar. Digərləri bildirirlər ki, heç bir səhv olmayıb. Sadəcə, qədim insanlar dünyanın cəhətlərini müəyyən rənglərlə işarə ediblər: cənub qırmızı, şimal qara rənglə işarələnib. Buna görə də cənubda yerləşən dənizi Qırmızı, şimala doğru uzanan dənizi isə Qara adlandırıblar. Alimlər bildirirlər ki, Qırmızı dəniz artım dövründə dənizin sularını qırmızı-qəhvəyi rəngə boyayan yosunlara görə belə adlandırılıb.

## Qara dəniz



Krım yarımadası və Kiçik Asiya yarımadası arasında yerləşən daxili dəniz. Bosfor boğazı (İstanbul boğazı) ilə Mərmərə dənizinə, Kerç boğazı vasitəsilə isə Azov dənizinə bağlanır. Səthinin sahəsi 422,000 km$^2$, ən dərin nöqtəsi 2210 m-dir. Qara dənizə tökülən çaylar arasında ən əhəmiyyətliləri Dunay və Qızılirmaqdır. Qara dəniz sularının əksəriyyətini Don, Dnepr və Dunay kimi iri çaylardan götürür.

Qara dəniz öz adını Osmanlı türklərindən alıb. Orta əsrlərdə türklərdə "Qara" (Kara) sözü "Şimal", "Qırmızı" (Kızıl) sözü "Cənub", "Ağ" (Ak) sözü isə "Qərb" mənasında işlənib. Beləliklə, Anadolunun şimalında olan dənizi türklər Qara dəniz, onun qərbində yerləşən dənizi Ağ dəniz, cənubunda yerləşən dənizi isə Qırmızı dəniz adlandırıblar. Egey və Aralıq dənizlərinin türkcə orta əsrlərdə olan birgə adı Ağdəniz olub. Lakin müasir dövrdə türklər Aralıq dənizinin yalnız şimal hissəsini digər ölkələr kimi Egey dənizi

adlandırırlar, Aralıq dənizi isə hələ də Ağdəniz olaraq adlandırılmaqdadır. Osmanlı dövründə türklər Egey dənizini bəzən "Adalar dənizi" də adlandırıblar, bu ad həmin dənizdə Türkiyə ilə Yunanıstan arasında yerləşən 12 adaya görə verilmişdir. Rusiyada yaşayan türk xalqı yakutların yerləşdiyi Yakutiyanın şimalında olan dəniz də eynilə "Qara dəniz" adlanır.

## Ağ dəniz



Şimal Buzlu Okeanda dəniz. Əsasən Rusiyanın ərazisi ilə əhatələndiyi üçün daxili dəniz hesab olunur. Ən əhəmiyyətli limanı Arxangelskdir.

## Ölü dəniz



İsrail və İordaniya özlərinin turistik qarşılamasında mühüm əhəmiyyət kəsb edən məkanlarından olan Ölü dənizi itirmək üzrədir. Dənizin öz səviyyəsinin enməsinə və suyunun

azalmasına səbəb kimi bura tökülən İordan çayının genişlənməsi göstərilir. Yəni ki, çay daha çox arealı tutaraq çox az hissəsi bura gəlib çatır. Həmçinin bu dənizdən qiymətli minerallar əldə olunur. Ölü dəniz dünyanın ən alçaq yeri kimi Yer planetində məşhurdur. Bununla yanaşı dünyada duzlu yer kimi də ad qazanmışdır. Bu dənizin suyu tamamilə müalicəvi və xeyirli minerallarla zəngindir, həmçinin kosmetika sənayesində də istifadə edilir. Özünün müalicəvi effektlərinə görə bu suyun ətrafında çoxsaylı kurort müəssisələri və spa mərkəzləri açmışlar. Mineralların sudakı bolluğu dəri xəstəliklərinin və başqa problemlərin dərmanına çevrilir. Lakin hələ əvvəlcədən yerli ekspertlər Ölü dənizin səviyyəsinin endiyini və müəyyən vaxt sonra tamamilə yox olacağını bildirirlər. Gün keçdikdə dənizin enişi hiss olunmağa başlayır, bu neçə ildə, xüsusən də son illərdə bu proses daha da güclənməyə başlamışdır. İsrailin su problemlərinə baxan qurumları dənizin səviyyəsində keçən il 138 sm eniş müşahidə etmişdir. Bu çox mühüm göstəricidir, həmçinin 1998-ci ildən etibarən dəniz suyu hər il 98 sm azalır. Ölü dəniz qlobal problemlərdən yaxud da iqlim dəyişkənliyindən məhv olmur, burdakı problem insanlardan qaynaqlanır. Çünki Ölü dənizin yeganə mənbəyi İordan çayıdır. Amma insanlar bu çayın suyundan hazırkı dövrdə əvvvəlki zamanlara nisbətən daha çox istifadə etməyə başlayıblar. Həmçinin Ölü dənizdən bir çox kompaniyalar da minerallar çıxardır. Dəniz səviyyəsinin düşməsi yollar, körpülər və digər infrastrukturlar üçün də mühüm problem yaratmışdır. Əlbəttə, bura turistik problemlər də daxildir. Buna misal olaraq, bir neçə restaranlar müəyyən illər bundan əvvəl Ölü dənizin sahilində yerləşirdi, lakin hazırda dənizdən təxminən 1 km - ə qədər uzaqlıqda yerləşir.

**Dənizin reqressiyası**

Dənizin reqressiyası (regressio-geriyə hərəkət) - dənizin qurudan çəkilməsi. Qurunun qalxması, bəzən dünya okeanında suyun azalması (məsələn, qitə buzlaşması epoxalarında) nəticəsində baş verir. Qapalı hövzələrdə iqlim şəraitinin dəyişməsi (quraqlıq) təsiri altında suyun həcminin azalması ilə bağlıdır. Dənizin geri çəkilməsi nəticəsində əmələ gələn çöküntülərin kəsilişi aşağıdan yuxarıya doğru nisbətən dərin su çöküntü süxurların dayaz su süxurları ilə, məsələn, gillərin qumlarla, sonuncuların isə konqlomeratlarla əvəz olunması ilə səciyyələnir. Dənizin reqressiyası, adətən, kiçik irəliləmə və çəkilmələrin, sonuncunun üstünlüyü şəraitində baş verən proseslər sırasından ibarətdir.

**Dənizlər və okeanlar haqqında 30 maraqlı fakt**

Ən güclü tufan zamanı belə, 20-30 metr dərinlikdə sular tamamilə sakitdir. Fırtına ilə sunami arasındakı fərq budur — sonuncu halda daha dərin su təbəqələri hərəkətə gəlir və bu da sunamini belə dağıdıcı təbiət hadisəsinə çevirir.
Dünyanın ən şəffaf suyu — Antarktida yaxınlığında, Ueddel dənizində yerləşir.
Bəzi yerlərdə dəniz suları gecələr parlayır. Daha doğrusu, suyun özü deyil, milyonlarla kiçik mikroorqanizmlər. Ancaq mənzərə hələ də heyrətamizdir.
Sahəsinə görə dünyanın ən böyük dənizi — Sarqasso. Hansı ki, yeri gəlmişkən, sözün adi mənasında ümumiyyətlə sahilləri yoxdur.
Dünyanın ən duzlu dənizi – Ölü dənizdir, Aralıq dənizindən doqquz dəfə duzludur. Lakin elmi baxımından Ölü dəniz

dəniz deyil, endoreik göldür. Xüsusilə dənizlər haqqında danışsaq, Qırmızı dəniz ən duzlu olacaq.
Sakit Okeanda tufanlar digərlərindən daha tez-tez baş verir Qırmızı dənizə bir çay belə axmır.
Xəzər dənizi — dünyanın ən böyük drenajsız su hövzəsidir.
Bütün dənizlərdən ən böyük həcmdə su Qırmızı dənizin səthindən buxarlanır.
Dünyanın ən çirkli dənizi — Aralıq dənizidir.
İçində Qara dənizdə həyat yalnız suyun yuxarı qatında mövcuddur, çünki daha dərin sular hidrogen sulfidlə çox doymuşdur.
Hər il insanlar dənizlərə və okeanlara tullantıların miqdarından üç dəfə çox zibil atırlar.
Dünyanın ən dərin yeri — Mariana xəndəyi. 11 kilometr 34 metrə qədər!
Aralıq dənizində 9 mindən çox müxtəlif canlı məxluq yaşayır.
Baltik dənizinin suları digərlərindən daha çox qızılla doymuşdur.
Qara dəniz quruda irəliləyir. beş ildə təxminən bir metr sürətlə.
Dünyada ən sürətli dəniz axını Norveç sahillərinə yaxındır. Solfjordun sürəti saatda 30 kilometrə çatır.
Antarktidadakı buzun həcmi təxminən Atlantik okeanındakı bütün suyun həcminə bərabərdir.
Sakit Okeanda 25 mindən çox ada var.
Ən isti dəniz — Qırmızı dənizdir.
Filippin dənizi — ən dərin, bəzi yerlərdə onun dərinliyi 10 kilometr həddi aşır.
Rusiyanın şimalında yerləşən Ağ dəniz — ən kiçikdir.
Açıq okeanda dalğaların hündürlüyü 40 metrə çata bilər.
Şərqi Sibir dənizi — ən soyuqdur.

Dənizlər Saturnun peyki olan Titanda tapılıb, lakin onlar heç də sudan ibarət deyil.
Azov dənizi – ən dayaz, maksimum dərinliyi 13,5 metrdir.
Aralıq dənizi digər ölkələrə nisbətən eyni vaxtda daha çox ölkəni yuyur.
Müxtəlif sıxlıqdakı su çayları dənizlərin və okeanların dibi boyunca axır, ona görə də digər təbəqələrin suyu ilə qarışmırlar.
Dəniz və okean dibində 3 milyona yaxın batmış gəmi yatır.

**Beynəlxalq Dəniz günü ilə əlaqədar kitabxanalarda keçirilə biləcək tədbirlər barədə məlumat**

Dəniz günü ilə bağlı kitabxanalarda mövzu ilə bağlı oxuculara daha ətraflı məlumat çatdırmaq üçün sərgilərin təşkili mütləqdir. Sərgiyə Dənizlə bağlı qələmə alınan şeirlər, nağıllar, hekayələr, atalar sözləri, tapmacalar, məlumatlardan bəhs edən kitablar yerləşdirilir. Sərgiyə müxtəlif başlıqlar vermək olar: "Mən bilmirəm hansı gündür dənizin ad günü, Odur dənizi təbrikə gəlirəm ömrün hər adi günü.", "Dəniz sonsuzluğun simvoludur", "Mən sənə heyranam, dəniz!", "Beynəlxalq dənizlər günü" , "Nə gözəlsən, sonam dəniz!, " Dönüb bir göy göyərçinə, sahilinə qonam, dəniz!", "Gecələrin boşluğunda nə gözəlsən, sonam dəniz!", "Dəniz böyük müəllimdir: heç öyrənmək istəməyənə də nə isə öyrədir.", "Baxdıqca ləpəli olan dənizə, Onun qarşısında diz çökəcəyik.", "Dəniz də, sanki bir canlıdır inan Həm sakit, hərdən də əsəbi olur" və s.

*Beynəlxalq Dəniz günü ilə əlaqədar metodist kitabxanaya gələn uşaqlara bu mövzudan bəhs edən maraqlı faktlarla məlumat verib, viktorina təşkil edə bilər . Viktorinada mövzu ilə əlaqədar bir – birindən maraqlı suallar öz əksini tapır. Tədbirdə fəal iştirak edən oxucular kitabxananın müdiriyyəti tərəfindən mukafatlandırılır. Suallar qabaqcadan metodist tərəfindən hazırlanır. Tədbirin sonunda oxucular dənizlə bağlı aforizimlər,atalar sözləri, tapmacalar söyləyirlər.*
*Həmin sualları sizlərə təqdim edirik:*
Sual: - Xəzər dənizdir, yoxsa göl ?
**Cavab**- Göl
Sual: - Dünyanın ən çirkli dənizi hansı dənizdir ?
**Cavab**- Aralıq dənizi.
Sual: - Ən isti dəniz hansıdır ?
**Cavab**- Qırmızı dəniz.
Sual: - Dünyanın ən dərin yeri necə adlanır ?
**Cavab**- Mariana xəndəyi. ( 11 km 34 m)
Sual: - Kim deyər ən duzlu dəniz hansı dənizdir ?

**Cavab** - Ölü dəniz.

Sual: - Quruda irəliləyən dəniz hansıdır ?

**Cavab -** Qara dəniz
Sual: - Dəniz haqqında kim şeir deyə bilər ?
Bu zaman uşaqlardan biri Rəsul Rzanın Dəniz şeirini söyləyir.
**Cavab**- ***Dəniz***

Göydə bulud oynayanda,
həm o yanda, həm bu yanda,
dalğaların qaynayanda,
mən sənə heyranam, dəniz!

Havanın sərxoşluğunda,
aydınlığın xoşluğunda,
gecələrin boşluğunda
nə gözəlsən, sonam dəniz!

Duyğu coşub, ürək dolub,
könül eşqinlə qovrulub.
Nə xoşdur bir fanar olub
yollarında yanam, dəniz!

Mən çoxdan vurğunam sənə.
Böyük arzum budur yenə:
dönüb bir göy göyərçinə,
sahilinə qonam, dəniz!

Mən səndən olmaram bezar.
Mənim böyük bir eşqim var.
Sənətkar duyduğun yazar.
Anam dəniz! Anam dəniz!

Rəsul Rza

## Dəniz və dənizçilər haqqında deyimlər

Sahilə düşəndə ürəyinin yarısını gəmidə "unutmayan"a dənizçi deməzlər.
Sakit dəniz axtaran dənizçi, özünə başqa peşə axtarsa yaxşıdır.
Sənə dənizçi olmamağın üçün min səbəb gətirərlər. Halbuki həyatının ürəyincə olmaması üçün bəzən bircəsi də kifayət edir.
Dəniz böyük müəllimdir: heç öyrənmək istəməyənə də nə isə öyrədir.
Dənizdə olanda özünü tənha hiss edəndən dənizçi çıxmaz.

Dənizi yaxından seyr etmək ən böyük hovuzda çimməkdən yaxşıdır.
Çaylar insanlara, dənizlər isə xalqlara paylaşmağı öyrədir.
Qara dəniz var. Digər dənizləri də qaraltmayın.
Kim bilir, bəlkə hər dalğa bir dənizçi ilə geri qayıtmaq istəyi ilə sahilə tələsir?
Baxmaqdan doymursunuzsa, deməli dənizə vurulmusunuz.
Dəniz sevgili kimidir. Ayrılan kimi darıxırsan.
İçində fırtına olmayıbsa, çətin ki, dənizi başa düşəsən.
Dənizlərdən şəfa diləyirik. Qara günə qoyduğumuz dənizlərdən?
Dənizlər insanlardan daha həssasdırlar:biganəlikdən məhv ola bilərlər.
Dənizin kövrək vaxtlarını görməmisənsə, deməli heç nə görməmisən.
Bir damla suda həyat varsa, gör dənizdə nə boyda həyat var.
Dənizin də quzuya dönən vaxtları olur.
Dənizə gedin. Dəniz bağışlamağı bacarır.
*Beynəlxalq Dəniz Günü ilə əlaqədar kitabxananın oxu zalında metodist uşaqlarla şeir müsabiqəsi təşkil edə bilər. Bunun üçün kitabxanaçı müxtəlif adlı məktəblərlə əməkdaşlıq edərək, mövzuya uyğun şeirləri iştirakçılara təqdim edir. Təyin edilmiş vaxta iştirakçılar kitabxananın oxu zalına toplaşır. Tədbiri açıq elan edən kitabxanaçının çıxışından sonra iştirakçılar qiraətli şəkildə şeirlərini söyləyirlər. Qalib gələn şagird mükafatlandırılır.*
*I iştirakçı:*

**Dənizçi qoca dedi**

Qoca dənizçi danışdı mənə
-Fikirli olur, - dedi,
-məkrli olur, - dedi,
-sirli olur, - dedi,
-təmiz olur,
-kirli olur, - dedi, - dəniz.
Sonra da əlavə etdi:
-İnsan kimi.
Bir qədər düşündü
dedi:
-Zaman kimi.
Söhbətimiz kəsildi.
Mən susdum.
O susdu.
Dəniz də insan kimi!
Dəniz də zaman kimi!
Deməli, bir sözümüz
qalmadı onsuz da!

Rəsul Rza

*II iştirakçı:*

**Çırpınırdı Qara dəniz**

Baxıb Türkün bayrağına!
"Ah!..." deyərdim, heç ölməzdim,
Düşə bilsəm ayağına.

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!

İncilər tök, gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

"Həmidiyyə" o Türk qanı!
Heç birinin bitməz şanı!
"Kazbek" olsun ilk qurbanı!
Heyran Türkün bayrağına!

Dost elindən əsən yellər,
Bana şer, salam söylər.
Olsun turan bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına!!! Əhməd Cavad

*III iştirakçı*

**Dəniz, göy, məhəbbət**

- Dənizi hədiyyə verirəm sənə...
Mən dedim, sən baxdın, sən gülümsədin.
Göylərin şəfəqi düşdü üzünə.
- Mən isə... göyləri verirəm, - dedin...

Ayrıldıq qəribə hədiyyələrlə,
Göylər eşqim kimi mənə əzizdir.
Ayrıldıq dənizlə, ağ ləpələrlə,
Necə aparasan? Dəniz dənizdir.

Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyim sahilə gələsən bir də.

Məni görməyəndə o mənəm - deyə,
Mənimlə danışıb, güləsən bir də.

- Əgər görüşməsək, bizə dağ olar,
Dedim, neçə dəfə belə dedim mən.
Dəniz sahilinə qayıtmaq olar,
Göylərin sahili varmı, gedim mən?!

Düşündüm, ayrıldıq gələndən bəri,
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdinmi mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?!

Nəbi Xəzri

*IV iştirakçı*

**Dəniz**

Tanrının verdiyi nemətdir bizə,
Onların qədrini bilməyəcəyik
Baxdıqca ləpəli olan dənizə,
Onun qarşısında diz çökəcəyik.

Dəniz də, sanki bir canlıdır inan
Həm sakit, hərdən də əsəbi olur
Düşəndə çətinə, təkliyə insan
Baxaraq dənizə çox fikrə dolur

İstəsən səninlə danışacaqdır,
Elə bil dərdinə şərik olacaq
Sanki o bir anlıq dil açacaqdır,
Qəlbinə ən yaxın bir dost olacaq.

Baxacaq o axan göz yaşlarına
Silmək istəsə də bacarmayacaq
Cevrilib geriyə çıxıb gedəndə
O sənin yerinə çox ağlayacaq

Gecə qaranlıqda, sakit havada
Baxdıqca dənizə ləzzət alırsan
O zaman yanında sevgin olanda
Elə bil, ayrı cür nəfəs alırsan

Sahib Rəhmanov

*Beynəlxalq Dəniz Günü ilə əlaqədar kitabxanamıza dəvət olunan şagirdlər mövzu ilə bağlı məlumat əldə etdikdən sonra onlarla sorğu-sual aparıla bilər. Uşaqların biliklərini məktəbdə öyrəndiklərini dinlədikdən sonra metodist nağıl saatını elan edir. Nağıl saatında Gülzar İbrahimovanın Dəniz balası nağılı uşaqların nəzərinə çatdırılır. Nağılı maraqla dinləyən uşaqlara bir sıra suallar verilir: Nağıl haqqında nə düşünürsüz?; Nağılın necə bitməsini istəyərdiniz? Hər kəs öz fikrini söyləyir.*

## Dəniz balası

*(Nağıl)*

Biri vardı, biri yoxdu, yer üzərində ucu-bucağı görünməyən böyük bir dəniz, onun sahilində isə ucu-bucağı bilinməyən Səhralar məmləkəti var idi. Bu böyük məmləkətin cavan bir şahı vardı. Elə adına da Səhra şah deyərdilər. Səhra şahın var-dövləti başından aşırdı, xəzinəsi ağzına qədər ləl-cavahiratla dolu idi. Ədalətli olduğuna görə rəiyyəti onu sevər, həm də itaətində durardılar. Tanrıdan ona cansağlığı, uzun ömür diləyərdilər. Səhra şahın evlənmək

vaxtı çoxdan ötmüşdü. Amma şah ürəyi istəyən ağıllı və gözəl qız tapa bilmədiyinə görə evlənə bilmirdi.

Bir gün yaxınları, saray əyanları şaha məsləhət gördülər ki, gələcəkdə taxt-tacının boş qalmamasına görə şah vaxtı hədər keçirməməli, mütləq evlənməlidir.

Şah saray əyanlarının sözünə qulaq asıb fikirli-fikirli dilləndi:

-Şahın evlənməyi göründüyü qədər də asan məsələ deyil. Gərək həm nəsilli-köklü birisi ilə evlənəm, həm də evlənəcəyim qız ağıllı və gözəl olmalıdır ki, ondan doğulan övlad da taxt-taca layiq şahzadə olsun. Göydə Tanrım və Yerdə siz mənə yardımçı olun ki, ləyaqətli birisi ilə evlənə bilim.

Məmləkətin ağsaqqalı sayılan vəzir şaha baş əyib dedi:

-Qibleyi-aləm sağ olsun, əvvəlcədən yəqin eləmişdim ki, bunu söyləyəcəksən. Odur ki, qabaqcadan adam göndərdim başqa diyarlara, onlar da mənə hər yandan soraq gətirdilər. Belə məlum olub ki, İran, Ərəbistan, bir də Hindistan hökmdarlarının hərəsinin bir gözəl qızı var. Fikrimcə, şah onların hansına elçi göndərərsə, hökmdarlar qızlarını Səhra şaha veməyə şad olarlar.



Bunu eşidən şah taxtdan qalxdı. Əyanlar ona baş əydilər. Şah fikrini bildirdi:

-Gözəllik, şahın xanımı olmağa əsas vermir. Mən onların ağlını, dərrakəsini yoxlamalıyam, vəzir!

Şahın mirzəsi izn alıb:

-Şah sağ olsun, -dedi. -Qızlar çox-çox uzaqdadırlar, ağlına, zəkasına

bələd olmaq üçün onlar vacibi şahın hüzuruna dəvət olunmalıdırlar.



Şah vəziri göstərdi:

-Qızları mənim üçün vəzir necə seçibsə, bunun da tədbirini o görər. Vəzir, yubatmadan çaparla xəbər yolla, dediyin şahzadələri sarayıma qonaq çagırtdır. Elə ki, qonaqlar məmləkətimə təşrif buyurdular, mən onları qırx gün qonaq saxlayacağam. Otuz altıncı gün onlara suallar verəcəyəm. Qızların hansı sualların çoxuna dürüst cavab taparsa, onunla da evlənəcəyəm.

*Uşaqlarda maraq oyatmaq məqsədi ilə metodist nağılı yarıda saxlaya bilər. Uşaqlar kitabı əldə edib oxuyun nağılın sonunun necə bitdiyini özünüz öyrənin, deyə müraciət edir.*

*F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Beynəlxalq Dəniz Günü ilə əlaqədar Ernest Heminqueyin Qoca və Dəniz adlı kitabının müzakirəsini təşkil edə bilər. Metodist əvvəl əməkdaşlıq etdiyi məktəblərlə əlaqə saxlayıb şagirdlərə kitab haqqında məlumat verir. Təyin olunan vaxt şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər.*




Ernest Heminquey
Qoca və Dənizçi
Bakı, Altun Kitab , 2009,128 səh.

Tərcümə edən: Manaf Süleymanov
Redaktor: Fəxri Uğurlu
Rəssam : Elçin Cabbarov
Bədii tərtibat: Səbuhi Qəhrəmanov

**Metodist**: Dünya şöhrətli yazıçı Ernest Heminqueyin Qoca və Dənizçi kitabının müzakirəsi başlayır.
- Uşaqlar kitab Qoca bir dənizçidən bəhs edir. Qoca hər gün dənizə gedir lakin balıq tuta bilmir. Hər kəs Qocanın uğursuz olduğuna inanır. Qocanın köhnə qayığı, yamaqlı toru onun balıq tutmasına imkan vermir. Lakin Qocaya bir tək şagirdi inanırdı və bu inam qocaya ümid verirdi. Bir gün Qoca dənizdən böyük bir balıq tutur. Bu zaman Qoca balığı ondan almaq istəyən köpək balığıyla mübarizə aparmalı olur və sonda köpək balığına qalib gəlir.
Metodidist kitab haqqında geniş məlumat verdikdən sonra uşaqlar da, müzakirəyə qoşulurlar. Şagirdlər bu hadisə ilə bağlı nə edərdilər, qoca haqqında nə düşünürlər, gəncin fikirləri necə düzdurmü sualı ətrafında geniş müzakirə edirlər. Sonda metodist şadirdlərə dəniz haqqında olan maraqlı kitablar haqqında danışıb və kitablardan numunə göstərə bilər və s.

*Dəniz haqqında maraqlı kitablar*




Jül Vern
Kapitan Qrantın Uşaqları
Bakı,Altun Kitab evində 2007-ci ildə tərcümə edilib. Kitab 128 səh. ibarətdir.
Uşaqlar üçün işləyən:
Elnur Aslanbəyli
Redaktor: Rafiq İsmayılov

Dünyaca məhşur Fransız yazıçısı Jül Vern macəra romanı janrında qələmə aldığı Kapitan Qrantın Uşaqları romanı dünyada uşaqların ən çox sevdiyi əsərlərdən biridir. Romanda baş vermiş hadisələr insanı həm sevindirir həm kədərləndirir. Qlenarvan və gözəl Elenin gəmi ilə gəzinti zamanı ovladıqları balinanın mədəsindən çıxan şərab şüşəsinin içindən olan kağız parçası, Kapitan Qrantın axtarışına səbəb olur. Qlenarvan və həyat yoldaşı Elen Kapitan Qrantın uşaqları ilə birlikdə kapitanın axtarışına çıxırlar. Böyuk çətinliklərlə baxmayaraq qarşılarına çıxan bütün hadisələrin öhdəsindən gəlməyi bacarırlar. Bu macaralı gəzinti zamanı Kapitan tapılır və övladları ilə birgə geri dönür.




Min bir gecə
Dəniz Səyyahı Sindibadın Nağılı
Bakı, “Qanun” Nəşriyatı
“Əli və Nino” Nəşriyatı 2011.
Kitab 96 səf. ibarətdir
Tərcümə edən: M. Əfəndiyev

“Dəniz səyyahı sindibadın nağılı” “Min bir gecə” nağıllarından biridir. Sindibadın möcüzəli adalara yeddi səyahətindən bəhs edən bu nağıl “Min bir gecə”nin ən maraqlı bölməsi hesab olunur. Bəzi tədqiqatçılar bu bölməni “Ərəb Odisseyası” da adlandırırlar. Sindibadın əcaib varlıqlarla qarşılaşmasından, bədheybət məxluqlara mübarizədə qalib gəlməsindən danışan nağıllar silsiləsinindəndir. Dolğun və incə poetik obrazları ilə oxucuları ovsunlayan səyyah Sindibadın nağılı dünya sərvətinə çevrilib.




*Xalid Hüseyninin Dəniz Duası kitabı 2018 –ci ildə nəşr olunub. 48 səh. dən ibarət olan bu kitab Qanun Nəşriyat evində Firudin Ağazadə tərəfindən tərcümə edilib.*

Ay işığına bələnmiş dəniz sahilində səhərin açılmasını və qayığın gəlməsini gözləyən bir ata yatmaqda olan körpə oğlunu əzizləyir, nəvaziş göstərir. Ötüb keçən uzun yay günlərini, Suriyadakı baba ocağındakı evlərini ona xatırladır, həyətdə sübhün havasında titrəyən zeytun ağaclarının xışıltısını, keçi mələrtisini, mətbəxdən gələn qab-qacaq səslərini yada salır. Nigaran ata yatan oğluna Homs şəhərinin qarışıq, izdihamlı küçələrini, məscidini, bazarını xatırladır, sonra bomba səslərindən baş götürüb qaçdıqlarını nağıl edir. Gün doğandan sonra evlərindən didərgin düşmüş o insanlar götürə bildikləri pal-paltarları ilə yeni sığınacaq, təzə məskən axtarışında qorxunc dəniz səfərinə çıxacaq. Bu dənizdə onların başına gələn vahiməli, qorxunc hadisələr yanaşı gələcək həyatlarında baş verəcək maraqlı hadisələr də gözləyir.

*Beynəlxalq Dənix Günü ilə əlaqədar metodist balaca oxucular üçün səhnəcik təşkil edə bilər. Metodist əməkdaşlıq etdiyi uşaq baxçasıyla əlaqə saxlayır. Səhnələşdirmək istədiyi kitabı müəlliməyə təqdim edir.Uşaqlar da hazırlaşır. Təyin olunan vaxt uşaqlar kitabxanaya gəlirlər və tədbirdə iştirak edirlər. Metodistin çıxışından sonra uşaqlar geyindikləri tədbir paltarıyla səhnəyə buyururlar və səhnəcik başlayır.*




Tumurcuq Dəniz Sahılındə
Tərtibçi: Əziz Sultanoğlu
Rəssam: İlknur Ercan Koldaş
Şərq-Qərb mətbəəsi

**Metodist**:
Cuq- cuq, tumurcuq,
İstidən bişdi körpəcik,
Dənizdə çoluq – çocuq.
Çimərlik libasın geysin,
Uzmək, sərinləməkçin gəlsin...
-Tumurcuq çimərlik libasını geyindi. Gün eynəyini taxdı. Çadırdan çıxdı. İsti qum Tumurcuğun ayağını yandırdı. Hoppanıb düşərək dənizə tərəf cumdu. Ayaqlarını suya saldı.
**Tumurcuq:** Oxay!
**Metodist**: - Tumurcuq sahil boyunca gəzdi. Tanış olmağa çox şey vardı.

Dalğalar dənizdəki bir çox şeyi sahilə atmışdı. Plastik qutular və qablar, konserv bankalar, sellofan paketlər, xeyli çör – çöp...
Tumurcuq bu əşyaları dənizə atanlara çox hirsləndi və dedi:
**Tumurcuq**: - Ətrafı çirkləndirməyə nə haqqınız var? Həm dənizdə çimirsiniz, həm də onu çirkləndirirsiniz. Eyib olsun. Sizlərə!
**Metodist:** - Tumurcuqun anası dənizdə üzürdü. Tumurcuq onu cağırdı. Gün eynəyini və şapkasısı çıxarıb sahilə atdı. Dənizə girdi. Su ılıq idi. Anası onu qolları arasına aldı.
Əlləri ilə qarnından tutaraq suya uzatdı:
**Ana**: - Ələrinlə, ayaqlarınla yavaş – yavaş hərəkət et!
**Metodist:** - Tumurcuq deyilənləri etdi.
Üzürmü yoxsa? Aması ələrini buraxdı. Tumurcuq suyun üstündə azacıq durdu. Sonra da, batdı. O zaman su udmuşdu.
**Tumurcuq:** - Eh ! – dedi, duzluymuş ki!
**Metodist**: - Sahilə çıxdıqda, Tumurcuqu ağır bir sürpriz gözləyirdi. Gün eynəyi və şapkası qoyduğu yerdə yox idi. Hər yeri axtardılar, amma tapa bilmədilər.
**Tumurcuq**: - Bildim, - dedi. – Eynəyimi, şapkamı yengəc götürüb. Onunla kobud davrandığım üçün!
**Metodist:** - Tumurcuq dənizə tərəf döndü. Ən şirin səslə yengəcdən üzr istədi.
Baxaq görək eynəyi ilə şapkası qaytarılacaqmı?

*Beynəlxalq Dəniz Günü ilə əlaqədar Metodist kiçik yaşlı uşaqlarla Bir gün dənizdə adlı kitabın sorğusunu apara bilər. Metodist əməkdaşlıq etdiyi uşaq bağçasıyla əlaqə saxlayır və təyin olunan gün uşaqlar kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Uşaqları salamladıqdan sonra metodist tədbirə başlayır.*




Bir Gün Dənizdə
İllüstrator: Sonya Baretti
Tərcüməçi : Arzu Cəfərova
Teas Press Nəşriyat evi, 2016

**Metodist**: Gəlin "Bir Gün Dənizdə" adlı kitabla tanış olaq! Azyaşlı tədqiqatçılar üçün kəşf ediləsi sürprizlər və əlvan illüstrasiyalarla zəngin mükəmməl kitabdır.

Bu kitab sadə və əyləncəli üsulla uşaqları sehrli və maraqlı aləmə səyahətə aparır. Səhifələrin qatlanan hissələrinin hər iki tərəfi rəngli illüstrasiyalardan ibarətdir.

**Metodist-** Gizlənən kimdir?

**Uşaqlar**- Xərcəng

**Metodist**- Xərçənglərin 10 ayağı olur. Onların yerişi çox qəribədir, yeriyəndə qabağa yox yanlara doğru gedirlər.

-Suda yaşıyan heyvanların bəziləri gizlənpaç oynamağı sevir...
Sizcəcə, bu kimdir?
**Uşaqlar**- Balıq...
**Metodist**- Təlxək balıqlar! Balıqlar dəniz bitkisi olan aktiniyaların tikanlı budaqları arasında yaşayır. Aktiniyalar balıqları və yumurtalarını yırtıcılardan qoruyur və onları qidalandırır.
-Bəzi dənizlər çox soyuqdur! Burada yaşayan Pinqivinlər buzun üstündə sürüşməyi çox sevirlər. Sizcə balaca pinqivinlər soyuqdan necə qorunur?
**Uşaqlar**- Onlar öz ata-anasının lələklərinin arasında gizlənib isinirlər.
**Metodist**- Suyu göyə fışqıran kimdir?
**Uşaqlar** – Balina...
**Metodist**- Bu – balinadır! Balinalar suyun altında nəfəs ala bilmir. Buna görə də onlar nəfəs almaq üçün suyun üzünə çıxır. Onlar nəfəs alarkən havanı başlarının üst tərəfində yerləşən burun dəliklərindən güclü təzyiqlə alıb – verir. Bu zaman suyu fəvvarə kimi göyə fışqırdırlar!
-Bəzi dənizlər çox dərindir və burada qeyri – adi, maraqlı canlılar var...
Onların bəzilərinin uzun qolları olur. Bu hansı canlıdır?
**Uşaqlar** – Oktabod...
**Metodist** – Oktabotun dörd cüt uzun qolları var. Qollarının üzərində sormac var. Oktabotun üç ürəyi var, qanı göy rəngdə olur birdə onlar özlərini müdafiyə edən zaman mürəkkəb rəngində maye fışqırır. Buda onları qoruyur.
-Dənizdə yaşayan bəzi canlılar işıq saçır, kim deyər bu canlının adı nədir?
**Uşaqla**r – Meduza...

**Metodist** – Dərin dəniz canlılarının çoxu bioloji işıq saçma kimi super gücə malikdir! Onların bəzilərinin alnının üstündə bioloji işıq sacan tələ var. Bunun köməyi ilə öz şikarlarını qaranlıqda da ovlayırlar.
-Dənizin kənarında gəmilərə yol göstərən işıq necə adlanır?
**Uşaqlar** – Dəniz fənəri.
**Metodist** – Bəli! Bu, dəniz fənəridir! Gecə vaxtı onun işıqları qayıq və gəmilərə yol göstərir. Onların quruya sağ – salamat yan almasına kömək edir. Necə böyük gəmidir! Baxaq görək içində nə var! Bu, dünyanı dolaşan səyahət gəmisidir. Səyahət gəmisinin göyərtəsində sərnişinlər müxtəlif əyləncələr təşkil edə bilər, əla vaxt keçirə və yolüstü bəzi limanlara yan ala bilərlər. Günəş batır! Dənizin kənarından günəşin qürubunu seyr etmək necədə gözəldir. Dənizin də rəngi dəyişir. Dəniz də necə gözəldir!

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Bir gün** dəniz**də**. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 10 s.

Dəniz **sahilində**. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 64 s.

**Heminquey E. M**. Qoca və dəniz : povest. - Bakı : Altun Kitab, 2009; 2012. - 128 s.

**Kiplinq R**. Cəsur dənizçilər. - Bakı : OKA Ofset, 2013. - 58 s.

**Koleric S. T**. Qoca Dənizçinin hekayəsi. - Bakı : Nurlar, 2021. - 104 s.

**Qaneri A**. Sahillərin tədqiqi : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 32 s.

**Qarayev İ**. Dəniz və dənizçi zarafatları : mikroroman. - Bakı : Çinar-çap, 2004. - 233 s.

**Malikqızı G**. Dəniz quldurları. - Çin : Zebra group, 2014. - 8 s.

**Məmmədli F**. İki damla dəniz : şeirlər. - Bakı : Adiloğlu, 2011. - 184 s.

Sualtı aləm : [oyuncaq] : maqnitli kitab-oyun. - Çin : Zebra group, 2014. - 5 s.

Tumurcuq. 5-ci kitab : Dəniz sahilində : 3-6 yaş. - Bakı : Şərq-Qərb, 2012. - 6 s.

Tutu: Tutu və onun dostlarının **dəniz** səyahəti : Tutu - Uşaq Mədəniyyət Mərkəzinin toplusu. - Bakı :
Tutu Uşaq Mədəniyyət Mərkəzi, 1998. - 19 s.

**Van M**. Dəniz kənarında bir kənddə : hekayə. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 33 s.

**Yusifoğlu R**. Dəniz, sən və mən : şeirlər. - Bakı : ADPU-nun mətbəəsi, 2009. - 384 s.

**Zaman S**. Dəniz mənimlə gedir : poeziya. - Bakı : Avropa, 2003. - 120 s.

**Dövrü mətbuatda**

**"Azərbaycan Respublikasının** dəniz təhlükəsizliyi strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 sentyabr 2013-cü il) // Azərbaycan. - 2013. - 12 sentyabr. - № 200. - S. 7.

**"Bakı Beynəlxalq** Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (18 mart 2015-ci il) // Azərbaycan : qəzet. - 2015. - 19 mart. - № 62. - S. 2.

"**Beynəlxalq** dəniz **gəmiçiliyinin** asanlaşdırılması haqqında" Konvensiyaya qoşulmaq barəsində : Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti. - 2006. - 19 may. - S.1.

"**Xəzər** dəniz**inin** dəniz ətrafı mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. - 2006. - 18 aprel. - S.1.

"**Xəzər** dənizinin **ətraf** mühitinin mühafizəsi haqqında " Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında" protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (21 dekabr, 2012) // Azərbaycan. - 2013. - 10 fevral. - № 31. - S. 4.

**Abdulla S**. Dəniz serenadası ; Hərbi gödəkcə nağılı ; Təkamül və b. : şeirlər // Azərbaycan : jurnal. - 2019. - № 9. - S. 69-73.

**Akif U**. Bir dəniz ayağımızın altında bir dəniz başımızın üstündə gözləyəndə : şeirlər // Ədəbiyyat qəzeti. - 2022. - 7 may. - № 16. - S. 8-9.

**Anar.** Böyük dənizlərin həsrətində // Ədəbiyyat qəzeti. - 2020. - 8 avqust. - № 28/29. - S. 2.

**Arabaçı A**. Mən bircə dənizdən küsə bilmədim ; Keçən il bu vaxt idi ; Uçub bir gün yolum üstə saldığın və b. şeirlər // Kaspi. - 2016. - 28 may. - № 93. - S. 20.

Azərbaycan Respublikasının Dövlət **Dəniz** Administrasiyasının yaradılması haqqında: Azərbaycan

Respublikası Prezidentinin Sərəncamı // Xalq qəzeti. - 2006. - 7 fevral. - S.1.

**Babanlı V**. Dəniz gəzintisi : hekayə // Ədəbiyyat qəzeti. - 2006. - 24 noyabr. - S.4, 6.

**Babayeva E**. Dəniz Rəsul Rza və Fazil Hüsnü Dağlarca poeziyasında // Azərbaycan : jurnal. - 2020. - № 5/6. - S. 20-24.

**Bağırlı M**. Xəzərsahili dövlətlər: tarixi anlaşma : 2018-ci il avqustun 12-də Aktau şəhərində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb // Respublika. - 2023. - 12 avqust. - № 170. - S. 2.

**Baxşəliyev R**. Xəzərlə Adriatik dənizi birləşir // Azərbaycan : qəzet. - 2020. - 1 mart. - № 47. - S. 1, 3.

**Bayramov V.** Neft Daşları dünyada ilk dəniz neftinin hasil edildiyi nadir sənaye obyektidir // Xalq qəzeti. - 2019. - 8 noyabr. - № 249. - S. 1, 6.

**Bayramov V**. Xəzərin suyu niyə çəkilir? : Yaxın gələcəkdə dənizin səviyyəsinin 9 metr enəcəyi gözlənilir // Xalq qəzeti. - 2023. - 25 iyul. - № 154. - S. 11.

**Bəhramov C**. Şərq-Qərb müəllifləri Azərbaycan, Xəzər dənizi və neft haqqında : Neft tariximiz... // İki sahil. - 2019. - 5 fevral. - № 23. - S. 13. ; 6 fevral. - № 24. - S. 13. ; 7 fevral. - № 25. - S. 21. ; 3 mart. - № 42. - S. 29. ; 8 mart. - № 46. - S. 29.

**Bəkir A**. Boynubükük lalə ; Dənizin özünü çırpdığı : şeirlər // Ulduz. - 2021. - N 6(625). - S. 74.

**Binnətova A. Ü**. Əlişir Nəvainin "Səb`at əbhur" ("Yeddi dəniz") əsərinin tədqiqi tarixindən // Kaspi. - 2020. - 8 fevral. - № 23. - S. 11.

**Cabbarlı N**. "Sahilini aşan dəniz" // Ulduz. - 2006. - №6. - S.43-45.

**Cavad Ə**. Qara dəniz : şeir // Ədəbiyyat qəzeti. - 2022. - 19 noyabr. - № 44/45. - S. 14.

**Cavi D.** İsmin yeddinci halı : romandan parça : bu romanı dənizlərə, qağayılara və çörək qırıntılarına həsr edirəm // Ədəbiyyat qəzeti. - 2017. - 9 sentyabr. - № 31. - S. 23.

Dalğaların qucağında : **dəniz** haqqında // Elli. - 2011. - № 7. - S. 16-18.

Dəniz **limanları haqqında** Azərbaycan Respublikasının Qanunu (28 aprel 2014 cü - il) // Xalq qəzeti. - 2014. - 16 may. - № 101. - S. 1-2.

Dəniz **mərcanları** // Karvan. - 2013. - № 2. - S. 60, 61.

Dəniz **nəhəngləri** : **Dəniz** nəhəngi sayılan balina haqqında // Tumurcuq . - 2007. - sentyabr. - S.8.

Dəniz **sərhədlərinin etibarlı** mühafizəsi üçün geniş imkanlar yaradılıb : Prezident İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin inşası başa çatan "Tufan" gəmisi və yeni xüsusi texnikalar ilə tanış olub // Azərbaycan : qəzet. - 2017. - 14 yanvar. - № 8. - S. 1-2.

Dənizdə **fırtına** : hekayə // Savalan. - 2021. - 14-20 dekabr. - № 40. - S. 3.

**Düma A.** (Ata). Əlvida, Xəzər dənizi : xatirə // Göyərçin. - 2010. - N 11. - S. 4, 5.

**Elçin.** Dənizə aparan yollar : rəssam haqqında yazıçı sözü // 525-ci qəzet. - 2020. - 7 mart. - № 27. - S. 14-15 ; Ədəbiyyat qəzeti. - 2020. - 7 mart. - № 9. - S. 16-17.

**Əhmədli S**. Dənizdən gələn səda : hekayə // Kaspi. - 2015. - 7 fevral. - № 24. - S. 21.

**Əsəd F**. Özünə çəkir adamı, dəniz də qadın kimidir : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 18 mart. - № 11. - S. 11.

**Fərəcova Z**. Dəniz fatehləri : neft tariximizdən // El. - 2009. - N 11. - S. 62-70.

**Fərmanzadə B**. Qaytar məni dənizlərə : şeir // Mədəni Maarif. - 2010. - N 3. - S. 76.

**Həbib M**. Mavi dəniz ; Xatirə ; Bərəltmə : şeirlər // Ulduz. - 2010. - N 2. - S. 18-19.

**Həsənbəy Y**. Dənizdə fırtına var ; Səhrada alın damcısı ; Payız hələ qış deyil və b. şeirlər // Azərbaycan : jurnal. - 2016. - № 5. - S. 111-118.

**Həsənli A**. Şairin dəniz sevgisi // 525-ci qəzet. - 2020. - 15 yanvar. - № 4. - S. 22.

**Hikmət N**. Karşı yaka memleket ; Qapalı dəniz : şeirlər // Azərbaycan : jurnal. - 2022. - № 2. - S. 5.

**Horovlu Ş. Z**. Orda dəniz idi, bir də biz idik : şeirlər // Ədəbiyyat qəzeti. - 2021. - 30 oktyabr. - № 43. - S. 27.

**Hüseynov B**. Xəzər ona göstərilən qayğıya heç vaxt borclu qalmır : 12 avqust Xəzər Günüdür // Xalq qəzeti. - 2018. - 12 avqust. - № 179. - S. 5.

**Hüseynzadə X**. Sakit gün ; Dəniz darıxanda ; Soyuq günəş və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2020. - 11 iyul. - № 22/23. - S. 25.

**Xəzri N**. Dəniz, göy, məhəbbət // Yeni Azərbaycan. - 2010. - 6 mart. - N 42. - S. 10.

**İbrahimova G**. Dəniz balası Tufan : nağıl // Sehrli dünya. - 2015. - № 39. - S. 18-25.

**İbrahimova İ**. Dənizin ətraf mühitinin mühafizəsi prioritet vəzifələrdəndir : 12 avqust Xəzər Günüdür // Azərbaycan. - 2010. - 12 avqust. - N 174. - S. 6.

**İftixar.** Bağrımın başı yandı ; Dənizdən inciyib, küsən ləpələr ; Eşq əlindən dərdə düşüb və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2014. - 11 iyul. - № 26. - S. 4.

**İsabəyli Q**. Dəniz və tufan : hekayə // Göyərçin. - 2018. - № 4. - S. 6-7.

**İsmayıl M**. Hər dənizin sahilində qürbət var, ayrılıq var sahilində hər çayın... : şeirlər // Ədəbiyyat qəzeti. - 2021. - 6 mart. - № 10. - S. 2-3.

**Kəmalə.** Dəniz neftçilərinə : şeir. // Respublika. - 2010. - 30 aprel. - N 91. - S. 8.

**Qarayeva S**. Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması aktual problemdir : İndiyədək aparılan tədqiqatlar Xəzərin səviyyəsində çox kəskin dəyişmələr olduğunu göstərir // 525-ci qəzet. - 2022. - 9 iyul. - № 120. - S. 15.

**Qoca F**. Dəniz : şeir // Savalan. - 2011. - 22-25 aprel. - № 25. - S. 2.

**Quluzadə M**. Dəniz və qağayılar ; Küləyin şikayəti ; Bölünən də yaşaya bilərmiş : esselər // Ədəbiyyat qəzeti. - 2016. - № 23.

**Quluzadə Z**. Dəniz : hekayə // Paritet. - 2007. - 30-31 oktyabr. - S. 14.

**Markes Q.** (Qabriel). İtmiş çağların dənizi : hekayə // Azərbaycan : jurnal. - 2016. - № 4. - S. 49-59.

**Məmmədxanlı G**. Dənizin nağılları // Savalan. - 2022. - 22-28 fevral. - № 7. - S. 3.
Mərcanlar // Savalan. - 2011. - 23-26 sentyabr. - № 44. - S. 8.

**Mirzəli C**. İşarəni dənizdən gözləyin : Firudin Ağayevin "İldırım dənizdə çaxır" romanının motivləri əsasında çəkilmiş "İşarəni dənizdən gözləyin" filmi bu il yüz illliyini qeyd etdiyimiz Azərbaycan cümhuriyyəti hökumətinin dağılması prosesini əks etdirən filmdir // Kaspi. - 2019. - 5 yanvar. - № 227. - S. 13.

**Müşfiq Ş**. Sənətdə dəniz obrazı : dalğalı duyğular mozaikası : II yazı // 525-ci qəzet. - 2018. - 1 sentyabr. - № 149. - S. 17. ; 25 avqust. - № 146. - S. 12.

**Mustafa F**. Dəniz köçü : hekayə // Ulduz. - 2005. - № 12. - S.52-68.

**Müzəffərli A**. İşığa doğru ; Şeytanın üzrxahlığı ; Mənə dəniz verin : hekayələr // Ədəbiyyat qəzeti. - 2018. - 2 iyun. - № 21. - S. 14.

**Nargis.** Dənizlər kraliçası - Maskalı gözəl Venesiya // Ədəbiyyat qəzeti. - 2016. - 9 aprel. - № 13. - S. 28.

**Narıngül.** Dənizə daş atacağam : hekayə // Kaspi. - 2016. - 8 oktyabr. - № 160. - S. 23.

**Natil X**. Balıqlar ölür : ...dəniz, külək və göy üzü silsiləsindən // 525-ci qəzet. - 2018. - 31 mart. - № 56. - S. 23.

**Nəzakət.** Həmdəmim dəniz : şeir // İşıq. - 2012. - № 2. - S. 35.

**Pərviz Z**. Dənizə çatmayan çaylar ; Çöl nəğməsi ; Səkkizinci muğam ; Şair balıq ovunda : şeirlər // Azərbaycan : jurnal. - 2020. - № 10. - S. 167-171.

**Pillainin T. S**. Dəniz ilahəsinin qəzəbi : roman // Ədəbiyyat qəzeti. - 2015. - 23 yanvar. - № 4/5. - S. 30.

**Rüstəm N**. Bu dənizdən bu sahilə ; Səni də aldı bu torpaq ; Bax belə və b. şeirlər // Azərbaycan : jurnal. - 2015. - № 4. - S. 142-144.

**Sadıqov T**. Azərbaycanın "dəniz gücü" - Xəzərdə peşəkar, çevik hərbi qüvvələr // Respublika. - 2023. - 12 avqust. - № 170. - S. 5.

**Tağızadə R**. Sahilin tənhalığı ; Dəniz tək ; Sən mənim qoynumda, mən qucağında və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2017. - 14 oktyabr. - № 36. - S. 25.

**Yaqubzadə M**. Dəniz suyunun şirinləşdirilməsi istiqamətində ilk addım : Ekologiya ili çərçivəsində // Xalq qəzeti. - 2010. - 13 aprel. - N 77. - S. 5.

**Yaşar A**. İnam, Müəllim, Dəniz : şeirlər // Yada düşdü. - 2019. - № 4(38). - S. 54.

**Yusifoğlu R**. Dəniz ayrı aləmdi ; Külək qoymayıb yataq ; Dəniz atı və b. : şeirlər // Göyərçin. - 2022. - № 10. - S. 2-3.

**Yusifoğlu R**. Dəniz, sən və mən ; Tufanlar önündə ; Yenə göz-gözəyik və b. : şeirlər // Ulduz. - 2010. - N 1. - S. 50-52.

**Yusifzadə X**. Xoşbəxt Yusifzadə: Dünyada dəniz neftinə yolu ilk dəfə Azərbaycan açıb // Respublika. - 2019. - 5 noyabr. - № 245. - S. 3.

**Ziya H**. Dənizin də dili var ; Ələklə söhbət ; Buğda dəni və b. şeirlər // Göyərçin. - 2014. - № 5/6. - S. 4.

# Dönüb bir göy göyərçinə, sahilinə qonam dəniz

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Niftiyeva Tərанə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**